azpromo

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu

# Azərbaycan məhsullarının Qətərə ixracı genişlənir

Image not readable or empty
/uploads/images/news/8cad525e5d2d4329cdb86934f4757c74_600x500-resize_crop-2638.jpg

Azərbaycan məhsulları oktyabrın 8-10 tarixlərində Qətərin Doha şəhərində keçirilən "Birinci Beynəlxalq Məhsullar" təqdim olunub. 18 Azərbaycan şirkətinin məhsullarının nümayiş olunduğu stendlər xarici şirkətlər və ziyarətçilərin böyük marağına səbəb olub, ixraca dair razılaşmalar əldə olunub.
Belə ki, sərgi çərçivəsində "Azersun  Holding" şirkəti "Al Meera", "Carrefour" və "Lulu" ticarət şəbəkələri  ilə məhsullarının satışına dair razılıq əldə edib. Azərbaycanın "Rəmzi-S" MMC şirkəti  ilə "Woodworks", "New Tech Contracting", "Golden Opportunity Trad and Contracting", "ABM", "K.M. contracting" şirkətləri ilə Sobsan  boyalarının satışına dair razılığa gəlinib. "Şirin" MMC şirkəti məhsullarının Qətərin böyük  marketlər şəbəkəsində satışına dair danışıqlar aparıb.
Azərbaycanın  "Amoris" MMC şirkətinin məhsulları da xarici şirkətlərin marağına səbəb olub. Belə ki, Qətərin "Salamis", "Red Colt Co", "Al wabra Farm" şirkətləri ilə məhsulların ixracına dair danışıqlar aparılıb və ilkin razılıq əldə olunub. Bundan başqa, "Gilan Holding" və "Buta Agro" şirkətləri də Qətərə məhsul ixracına dair müvafiq razılığa gəliblər.
Azərbaycanın "M studio" dizayn şirkəti Qətər şirkətlərinin inzibati binalarında və şəxsi mənzillərdə dizayn xidmətlərinin həyata keçirilməsinə dair sifarişlər alıb. Qətər dövlətinin Memarlar İttifaqı tərəfindən şirkətə İttifaqa üzv olmaq təklif olunub.
Qeyd edək ki, qida, tekstil, sənaye, dizayn və digər sahələrdə fəaliyyət göstərən Azərbaycan şirkətləri "Birinci Beynəlxalq məhsullar" sərgisində İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanın Qətərdəki səfirliyinin və AZPROMO-nun təşkilatçılığı ilə fərdi qaydada iştirak edib.